# Deviant davranış probleminin tədqiqinə əsas yanaşmalar

**Şahnaz Aslanova**
*Bakı Dövlət Universitetinin müəllimi*
**E-mail:** shahnaz-qurbanova@rambler.ru

**Rəyçilər:** psixol.ü.f.d., dos.E.A. Piriyeva,
psixol.ü.f.d. İ.M. Məmmədli

**Açar sözlər:** deviant davranış, “yayınan” davranış, destruktiv davranış, psixoloji meyarlar
**Ключевые слова:** девиантное поведение, отклоняющееся поведение, деструктивное поведение, психологические критерии
**Key words:** deviant behavior, aberrant behaviour, destructive behavior, psychological criteria

Təhlil obyekti olan “şəxsiyyətin davranışının yayınması” anlayışını təhlil etməzdən əvvəl həmin psixoloji təzahürün meyarlarını müəyyənləşdirmək lazımdır. Bir çox elmlərdə təzahürlərin “normal” və “anomal” təsnifləndirilməsi qəbul edilmişdir. İnsan davranışının təhlilində, xüsusilə, yayınma amilinin öyrənilməsində J.Qodfuranın “hansı davranışı normal hesab etmək olar?” sualı mərkəzi problem kimi çıxış edir. “Normal” və “anomal” anlayışları kifayət qədər mürəkkəb tərkibə malikdir. Buna baxmayaraq elmdə və məişətdə həmin anlayışlar hökm olaraq səsləndirilir. Başqa sözlə desək, normal davranışın tərkibinə əksər insanlar üçün xarakterik olan xəstəliklərlə əlaqəli olmayan dəstəklənən davranışlar aid edilir. Analoji olaraq, anormal davranışa isə normativ hüquqi cəhətdən dəstəklənməyən, patoloji qeyri-standart davranışlar aid edilir. Dar mənada, hazırki anda, hazırki elmdə qəbul edilənlər norma hesab olunur. Normaların əldə edilməsi əksər hallarda statistik meyarlar metodu vasitəsilə həyata keçirilir. Bu yolla istənilən təzahürün çoxluq içində rast gəlinmə tezliyinin hesablanması vasitəsilə normaları müəyyən edilir. Riyazi statistik nöqteyi-nəzərdən 50%-dən yüksək olan göstəricilər normal hesab edilə bilərlər.

İxtisaslaşdırılmış ədəbiyyatlarda “yayınan davranış” termini adətən, deviant davranış (latın dilindən tərcümədə deviatio – yayınma deməkdir) termini ilə sinonim kimi təqdim edilir.

Bir çox ədəbiyyatlarda deviant davranış termini rəsmi şəkildə müəyyənləşdirilmiş və cəmiyyət normalarına müvafiq olmayan insan davranışı kimi xarakterizə olunur. Başqa sözlə desək, bu tip insan davranışı mövcud qanun, qayda, adət, ənənə və sosial gözləmələrə uyğun gəlməyən davranış kimi səciyyələndirilir. Deviant davranışı təhlil edərkən sosial normaların tarixi – inkişaf dövründən asılı olaraq qeyri-sabit xarakter daşıdığı faktının nəzərə alınması aparılan tədqiqatın obyektivliyini və etibarlılığını təmin edən amillərdən biri kimi çıxış edir. Bu baxımdan deviant davranış xarakter etibarilə dəyişkən məzmuna malik anlayış kimi nəzərdən keçirilir (1).

Humanitar elmlərdə statistik göstəricilərlə yanaşı, normal və qeyri-normal davranışın xüsusi meyarları da müəyyən edilir. Bunlara psixopatoloji sosial-normativ və fərdi-psixoloji keyfiyyətlər aid edilir. Psixopatoloji meyarlar daha çox tibb elmində istifadə olunur. Lakin bu meyarlar şəxsiyyətin davranışının yayınması ilə əlaqədar digər sferalara da tətbiq edilir. Bunu deviant davranışın tədqiqində ənənəvi olaraq klinik şəraitlərdə istifadənin geniş yayılması ilə əlaqələndirmək mümkündür. Psixopatoloji meyarlar nöqteyi-nəzərindən davranışı iki qrupa iki qrupa: normal və patoloji, başqa sözlə, sağlam və xəstə olmaqla iki

yerə ayırırlar. Ümumdünya Səhiyyə Təşkilatının nizamnaməsinə görə, yalnız fiziki qüsuru və xəstəliyi olmayan insanlar sağlam hesab edilirlər. Sağlam insana fiziki, ruhi və sosial sferada tam şəkildə mövcud olan insanlar aid edilir. Patologiya isə tibbi nöqteyi-nəzərdən istənilən normadan kənar psixi təzahür hesab edilir.

Deviant davranış xəstəliklərin təsnifatında ayrıca nozoloji vahid kim fərqləndirilmədiyi kimi patologiyanın forması kimi də qeyd olunmur. Bir çox sahələrdə deviant davranış norma ilə patologiya arasında olan keçid mərhələsi kimi təhlil edilir və xəstəlik öncəsi inkişaf pozuntusu, situativ reaksiya, xarakter aksentuasiyası ilə eyniləşdirilir. Qeyd olunan xarakteroloji diaqnostik əlamətlərin qeyri – müəyyənliyi problemi daha da dərinləşdirir. Məsələn, xarakter aksentuasiyası - psixogen təsirlər nəticəsində müəyyən bir keyfiyət toplusunun qabarması ilə normanın son həddi kimi qiymətləndirilir. Bir çox hallarda aksentuasiya hüquqazidd fəaliyyət, suisidal davranış, narkotik qəbulu kimi və s. davranış yayınmaları ilə əlaqələndirilir. Lakin eyni zamanda xarakter aksentuasiyası olan bir çox insanların davranışı davranış yayınması kimi nəzərdən keçirilmir. K.Leonqardın fikrincə, inkişaf etmiş ölkələrin əhalisinin 50%-ni şəxsiyyət aksentuasiyası olan insanlar təşkil edir. Lakin bununla yanaşı onların böyük bir hissəsi nəinki normal davranış nümayiş etdirirlər, hətta cəmiyyətin inkişafında önəmli rol oynayırlar. Analoji olaraq, psixi patologiya sahəsinə aid olan pozuntularda (psixopatiya, nevrozlar, psixozlar və s.) birmənalı olaraq davranış pozuntuları müşahidə olunmur. Psixi pozuntular bəzi hallarda patogen dezadaptasiya yaradaraq davranış pozuntusu ilə müşayiət olunur. Digər psixi pozuntularda isə davranış deviasiyası aşkar görünməyə də bilər (4).

Növbəti sosial-normativ meyarlar ictimai həyatın müxtəlif sferalarında mühüm əhəmiyyətə malikdir. Sosial normalara müvafiq davranışlar hazırki cəmiyyətin tələblərinə uyğun hesab edilir, dəstəklənən normal davranış kimi qavranılır. Davranış yayınmaları isə əksinə, cəmiyyətin dəyərləri və gözləmələri ilə ziddiyyət təşkil edir. Cəmiyyətdə baş verən dəyişikliklərlə sosial normalarda baş verən dəyişikliklər düz mütənasib münasibətdədirlər.

Sosial – normativ meyarlar nöqteyi–nəzərindən normal davranışın əsas göstəricisi şəxsiyyətin sosial adaptasiya səviyyəsi ilə müəyyənləşdirilir. Başqa sözlə desək, uğurlu adaptasiya fərdin xüsusiyyətləri və dəyərləri ilə ətraf mühitin tələblərinin üst-üstə düşməsi ilə xarakterizə olunur. Lakin qeyd etməliyik ki, konformizm hesab olunan fərdin tamamilə sosial tələblərə tabe olması özü də problem situasiya hesab olunur. Buradan belə bir nəticəyə gəlmək olar ki, dezadaptasiya ətraf mühitin tələblərini şəxsi mənalandıraraq qəbul etmə və icra etməsi ilə yanaşı, özünü müəyyən fərdi sosial şərtlər daxilində də reallaşdırması qabiliyyətinin aşağı düşməsidir. Buraya, həmçinin, cəmiyyətlə uzlaşmaq istəyinin olmaması və yaxud da düzgün vasitələrin seçilməməsi də aiddir.

Psixoloji gerçəkliyin elmi təhlil formalarından biri də onun təzahürlərinin təsnifatlaşdırılmasıdır. Tədqiqatçılar müxtəlif dövrlərdə davranış yayınmalarını sistemləşdirmək üçün çoxsaylı cəhdlər etsələr də vahid təsnifatın yaradılmasına hələ də nail ola bilməmişlər. Mövcud çətinlikləri isə bir neçə şərtlərlə izah etmək mümkündür.

Əsas səbəb davranış deviasiyası probleminin fənnlərarası xarakterindən ibarətdir. Belə ki, davranış pozuntularının müxtəlif təsnifatları mövcud olduğundan «deviant davranış» termini müxtəlif elmlərdə fərqli mənaları ifadə edir (3).

Təsnifat probleminin mövcudluğunun digər səbəbləri arasında davranış formalarının olduqca müxtəlifiyini və ümumiyyətlə, «norma» anlayışının qeyri-müəyyənliyini qeyd etmək mümkündür. Bütün bunlar ümumi meyarların ayırd edilməsini mürəkkəbləşdirdiyi kimi davranış yayınmalarının müxtəlif növlərinin vahid təsnifatının yaradılmasını da əhəmiyyətli

dərəcədə çətinləşdirir.

Psixoloji yanaşma üsulu şəxsiyyətin davranış yayınmasının müxtəlif növlərinin sosioloji – psixoloji fərqlərinin ayırd edilməsinə əsaslanmışdır. Psixoloji təsnifatlar aşağıdakı meyarların əsasında qurulur:

- pozulmuş normanın növü;
- davranışın psixoloji məqsədləri və onun motivasiyası;
- bu davranışın nəticələri və onlar tərəfindən vurulan ziyan;
- davranışın fərdi – üslub xarakteristikası.

Psixoloji yanaşma üsulunun çərçivəsi daxilində davranış yayınmasının müxtəlif tipologiyalarından istifadə olunur. Əksər müəlliflər, məsələn, Y.A.Kleyberq, davranış dəyişkənliklərinin üç əsas qrupunu ayırd edir:

- neqativ (məsələn, narkotiv maddələrin istifadəsi);
- pozitiv (məsələn, sosial yaradıcılıq);
- sosial – neytral (məsələn, dilənçilik).

Bizim fikrimizcə, şəxsiyyətin davranış yayınmasının növlərinin sistemləşdirilməsinin daha mükəmməl və maraqlı variantlarından biri də S.P.Korolenkoya və T.A.Donskoya məxsusdur. Müəlliflər bütün davranış dəyişkənliklərini iki böyük qruplara bölürlər:

- qeyri – standart;
- destruktiv davranış.

Qeyri–standart davranış yeni təfəkkür, yeni ideyalar, eləcə də, davranışın sosial stereotiplərinin çərçivələrindən kənara çıxan əməllər şəklində təzahür edir. Bu cür forma konkret tarixi şəraitdə qəbul olunan normaların çərçivələrindən kənara çıxan, lakin cəmiyyətin proqressiv inkişafında pozitiv rol oynayan fəallığı nəzərdə tutur. Novatorların, inqilabçıların, müxalifətçilərin, müəyyən elm sahəsində ilk ixtiraçıların fəaliyyəti qeyri – standart davranış kimi xarakterizə oluna bilər. Bu qrup ciddi mənada pozulmuş davranış kimi qəbul oluna bilməz.

Sosial islahatlar nəinki cəmiyyətinin ictimai həyatının iqtisadi quruluşunu tamamilə dəyişmiş, eləcə də sərvət meyillərini dəyişmişdir. Buna müvafiq olaraq gənclərin mühitində sosial həmrəyliyin qorunması və ümumilikdə münasib sosial identikliyin təminatı üçün zəruri olan normativ – dəyər oriyentirlərinin itirilməsi baş vermişdir. Çünki ənənəvi olaraq sosial tarazlığı qoruyub saxlamış və gənc nəslin sosial baxımdan inkişafı şərtlərini təmin edən ictimai baxımdan əhəmiyyətli normativlər yeniləri ilə əvəz olunmuş, müasir cəmiyyətə adekvat olan rasional – praqmatik əxlaq isə hələ də təşəkkül tapmamışdır. Bu cür şəraitdə yeniyetmələrin mühitində həm sosial innovasiyalarda, həm də sosial etirazda ifadə olunan deviant davranışın müxtəlif formaları meydana çıxır.

**Məqalənin aktuallığı**. Şəxsiyyətin normadan yayınan davranışının müxtəlif aspektlərinin tədqiqi müasir dövrümüzdə də öz aktuallığını itirməmişdir. Müasir dövrdə bu və ya digər formada təzahür edən davranış yayınmalarının səbəblərinin tədqiqi, aradan qaldırılması yolları və profilaktikası bu gün qarşıda duran ən vacib məsələlərdən biri hesab olunur. Bu baxımdan deviant davranış probleminin araşdırılması zəruridir.

**Məqalənin elmi yeniliyi**. Deviant davranış sosial, psixoloji, iqtisadi mədəni amillərin təsiri ilə formalaşan sosial psxioloji təzahür kimi xarakterizə olunur. müxtəli elmi mənbələrə istinad edilərək problemin təhlili mühüm elmi əhəmiyyət daşıyır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi**. Məqalədən hüquq, yaş, sosial psixologiya kursu üzrə mühazirə və məşğələlərdə, eləcə də, müəllim, valideynlər tərəfindən istifadə edilə bilər.

## Ədəbiyyat


1. İsmayılov N. Psixiatriya. Bakı: Qapp-poliqraf, 2004.
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı: Çinar–çap, 2002.
3. Клейберг Ю.А. Социальная психология девиантного поведения. М.: 2004.
4. Змановская Е.В. Девиантология. М., 2003.


**Ш. Асланова**

## Основные подходы к изучению девиантного поведения

## Резюме

В статье анализируются основные подходы к изучению девиантного поведения: биологический, психологический и социологический. В статье представлены результаты теоретического анализа проблемы девиантного поведения. В статье выделяется понятие делинквентного поведения как формы девиантного поведения и описываются его особенности.

**Sh. Aslanova**

## Main approaches to the study of deviant behavior

## Summary

The article analyzes the main approaches to the study of deviant behavior: biological, psychological and sociological. The article presents the results of a theoretical analysis of the problem of deviant behavior. The article emphasizes the concept of delinquent behavior as a form of deviant behavior and describes its features.

**Redaksiyaya daxil olub:** 20.07.2018